# İri dövlət müəssisələrinin səmərəliliyinin artırılması istiqamətində normativ aktlar

Abil Bayramov

Bakı, 19 sentyabr, 2020

CIPE

EDF SBIIYF

# Azərbaycan Respublikasının Mülki Məcəlləsi

## 4-cü fəsil: Hüquqi şəxslər

- Hüquqi şəxslərə dair əsas müddəalar (Hüquqi şəxs anlayışı, hüquqi şəxsin yaradılması, Hüquqi şəxsin nizamnaməsi, hüquqi şəxsin orqanları, hüquqi şəxsin ləğvi və s.)
- Kommersiya təşkilatları (təsərrüfat ortaqlıqları və cəmiyyətləri, (təsərrüfat ortaqlıqlığı və cəmiyyəti iştirakçılarının hüquq və vəzifələri, məhdud məsuliyyətli cəmiyyət, səhmdar cəmiyyəti və s.)
- Digər müddəalar.

# Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı bəzi tədbirlər haqqında AR Prezidentinin Fərmanı (19.07.2016)

- **Nazirlər Kabinetinə tapşırılır:**

- orta müddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin siyahısını müəyyənləşdirsin, həmin müəssisələrin restrukturizasiyasını həyata keçirsin və onların tabeliyində olan qeyri-profil müəssisə və obyektlərin çıxarılaraq özəlləşdirilməsi üçün tədbirlər görsün;
- iri dövlət şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətində şəffaflığı artırmaq və səmərəliliyi yüksəltmək məqsədi ilə müasir korporativ idarəetmə prinsiplərinin tətbiq olunması və vacib struktur dəyişikliklərinin aparılması üçün lazımi tədbirlərin həyata keçirilməsini təmin etsin və s.

## Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı bəzi tədbirlər haqqında AR Prezidentinin Fərmanı (19.07.2016)

- **Azərbaycan Respublikasının Özəlləşdirməyə Nəzarət üzrə Dövlət Komissiyasına tapşırılır:**

- özəlləşdirmə prosesinə nəzarətin gücləndirilməsi və bu sahədə aşkarlığın təmin edilməsindən ötrü məqsədyönlü tədbirlər görsün;

- dövlət əmlakının özəlləşdirilməsində şəffaflığın və məlumatlandırmanın təmin edilməsi, həmçinin müvafiq prosedurların elektron üsulla gerçəkləşdirilməsi üçün tədbirlər görsün.

- **Əmlak Məsələləri Dövlət Komitəsinə, ərkəzi və yerli icra hakimiyyəti morqanlarına, dövlət mülkiyyətində olan hüquqi şəxslərə də bir sıra tapşırıqlar verilir**

# Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında AR Prezidentinin Sərəncamı (5 sentyabr 2016-cı il)

- **Nazirlər Kabinetinə tapşırılır:**

- paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla dörd ay müddətində təsdiq etsin;
- beynəlxalq təcrübə və milli iqtisadiyyatın xüsusiyyətləri nəzərə alınmaqla, səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərində korporativ idarəetmə qaydalarını və standartlarını, habelə həmin qaydaların və standartların mərhələlərlə tətbiqinə dair tədbirlər planını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla dörd ay müddətində təsdiq etsin;
- paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə maliyyə hesabatlarının beynəlxalq standartlarının mərhələlərlə tətbiqi üçün tədbirlər görsün və görülən işlər barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin və s.

# İri dövlət şirkətlərinin gəlirlər və xərclər smetaları haqqında NK-nin Qərarı (30 dekabr 2016-cı il)

- “Gəlirlər və xərclər smetaları hazırlanmalı, təsdiq edilməli və icrası üzrə monitorinq aparılmalı olan iri dövlət şirkətlərinin Siyahısı” təsdiq edilsin (1 nömrəli əlavə).
- “İri dövlət şirkətlərinin gəlirlər və xərclər smetalarının tərtibi Qaydası” təsdiq edilsin (2 nömrəli əlavə).
- “İri dövlət şirkətlərinin gəlirlər və xərclər smetalarının icrası üzrə monitorinq aparılması Qaydası” təsdiq edilsin (3 nömrəli əlavə).

# Gəlirlər və xərclər smetaları hazırlanmalı, təsdiq edilməli və icrası üzrə monitorinq aparılmalı olan iri dövlət şirkətlərinin siyahısı

- 1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti.
- 2. “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti.
- 3. “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti.
- 4. “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti.
- 5. “Azərsu” Açıq Səhmdar Cəmiyyəti.
- 6. “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti.
- 7. “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti.
- 8. “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti.
- 9. “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyəti.
- *10-1. “Azərkosmos” Açıq Səhmdar Cəmiyyəti.*
- 11. Azərbaycan Respublikası *Nəqliyyat,* Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində olan qurumlar (“Aztelekom” MMC, *“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC,* “Azərpoçt” MMC və *“Bakı Telefon Rabitəsi” MMC*).

# Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı bir sıra normativ hüquqi aktların təsdiq edilməsi haqqında NK-nin Qərarı (4 iyun 2019-cu il)

- “Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi Qaydası” təsdiq edilsin (1 nömrəli əlavə).
- 2. “Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərində korporativ idarəetmə Qaydaları və Standartları” təsdiq edilsin (2 nömrəli əlavə).
- 3. “Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin nəticələrinə əsaslanan ödəniş sistemi əsasında hüquqi şəxslərin idarəetmə orqanlarının üzvlərinə bonus ödənişinin verilməsi Qaydası” təsdiq edilsin (3 nömrəli əlavə).

# Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi QAYDASI

- Bu Qayda paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi meyarlarına əsasən qiymətləndirmə prosedurunu tənzimləyir.
- Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər (bundan sonra – hüquqi şəxs) dedikdə, paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və dolayısilə dövlətə məxsus olan səhmdar cəmiyyətlər, məhdud məsuliyyətli cəmiyyətlər nəzərdə tutulur.
- Səmərəliliyin qiymətləndirilməsi dövri olaraq səmərəlilik göstəricilərinin hesablanması ilə həyata keçirilir

# Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərində korporativ idarəetmə QAYDALARI və STANDARTLARI

- Ümumi müddəalar
- Səhmdar cəmiyyətlərdə korporativ idarəetmənin standartları
- Dövlət tərəfindən səhmdar funksiyasının effektiv şəkildə icrası
- Müşahidə Şurasının (Direktorlar Şurası) təşkili
- Səhmdar cəmiyyətin fəaliyyətinin şəffaflığının təminatı
- Səmərəli və çevik icra sisteminin təşkili
- Effektiv daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin formalaşdırılması
- Korporativ idarəetmə prinsiplərinə riayət olunmasının təşkili
- Korporativ sosial məsuliyyət
- Yekun müddəalar

# Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin nəticələrinə əsaslanan ödəniş sistemi əsasında hüquqi şəxslərin idarəetmə orqanlarının üzvlərinə bonus ödənişinin verilməsi QAYDASI

- Ümumi müddəalar
- Ümumi prinsiplər
- Bonus Komitəsi
- Bonusun müəyyənləşdirilməsi qaydası
- Bonus məbləğinin hesablanması və ödənilməsi qaydası
- Hesabatlılıq

# Azərbaycan İnvestisiya Holdinqinin yaradılması haqqında AR Prezidentinin Fərmanı (7 avqust 2020-ci il)

- “Azərbaycan İnvestisiya Holdinqi” publik hüquqi şəxs yaradılsın.
- “Azərbaycan İnvestisiya Holdinqinin Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).
- Müəyyən edilsin ki, Azərbaycan İnvestisiya Holdinqinin (bundan sonra – AİH) fəaliyyətinə rəhbərliyi həyata keçirmək üçün Müşahidə Şurası və İdarə Heyəti yaradılır;
- idarəetməsinə veriləcək dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin (bundan sonra – dövlət müəssisələri) Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq ali idarəetmə orqanının müstəsna səlahiyyətinə aid edilmiş məsələləri AİH Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həll edir.

# Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyət istiqamətləri

- müvafiq sahənin inkişafını təmin etmək;
- müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək, həmin siyasətin həyata keçirilməsini təmin etmək;
- müvafiq sahədə aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;
- qabaqcıl beynəlxalq təcrübədən istifadə etməklə dövlət müəssisələrində idarəetməni təşkil etmək;
- dövlət müəssisələrinin maliyyə sağlamlığını və dayanıqlılığını yaxşılaşdırmaq, bu məqsədlə onların maliyyə resurslarını, habelə xarici borcların cəlb olunmasını effektiv meyarlar əsasında idarə etmək;
- dövlət müəssisələrinin fəaliyyət göstərdiyi xidmətlər bazarına özəl investisiyaları cəlb etmək, bu məqsədlə dövlət-özəl sektor tərəfdaşlığının inkişafını stimullaşdırmaq;

## Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyət istiqamətləri

- dövlət müəssisələrinin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi üçün onların səmərəlilik göstəricilərini müəyyən etmək və monitorinqini aparmaq;
- dövlət müəssisələrinin xərclərinin optimallaşdırılması və maliyyə şəffaflığının təmin edilməsi ilə bağlı tədbirlər görmək;
- dövlət müəssisələrinin beynəlxalq səviyyədə rəqabət qabiliyyətini artırmaq;
- dövlət müəssisələrinə dövlətin ayırdığı investisiyalardan səmərəli istifadəyə nəzarət etmək;
- dövlət müəssisələrinin özəlləşdirilməyə (tam və ya qismən) hazırlanmasında iştirak etmək;
- Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

DİQQƏTİNİZƏ GÖRƏ TƏŞƏKKÜR EDİRİK!